

*Vahid NADİROĞLU*

**Vahid Nadiroğlu 1972-ci ildə fevral ayının 2-də Ordubad rayonunun Aşağı Endəmiç kəndində anadan olmuşdur. 1979-1989-cu illərdə Ordubad İnternat məktəbini bitirmişdir. İndi vətəndən uzaqlarda yaşayır. Yaradıcılıqla orta məktəb illərindən məşğul olub. Özünəməxsus maraqlı, aktual şeirləri var. Kitabı yoxdr, amma dəftəri var. Şairdir. Təbii, rəvandilli şair**

**Fərqanə MEHDİYEVA**

## Şəhid Tural Haşımlının əziz xatirəsinə

Titrədi yudumun torpağı,daşı,
Döndü izdihama, sel yola saldı.
Bir igid balanı, Şəhid qardaşı,
Gəlib son mənzilə el yola saldı.

Bələndi bayrağa tabutu ,nəşi,
Yandırdı qəlbləri odu, atəşi,
Geldi vidasına o yaz günəşi,
Çağladı təbiət ,yel yola saldı.

Ağlatdı Atanı içindən ağrı,
Bu yara götürməz, heç zaman sarğı,
Yarıldı Ananın ürəyi,bağrı,
Saçından yolduğu tel yola saldı.

## Gözəldi.

Ordubadım sevər gələn qonağı,
Yayı başqa, həmdə qışı gözəldi.
Bulaqlardan sallanan buz salxımı,
Şaxta salan, her naxışı gözəldi.

Hiss edərsən sən özünü behiştə,
Izin qalar dağda, daşda, örüştə,
Axşam, "maş şorbası", ya da ,,əriştə",
Səhər- səhər ,,qazan- xaşı" gözəldi.

Insanların burda geniş ürəyi,
Isti qəlbə neylər qışın küləyi?
Təndirdə yapılan isti çörəyi,
Qovurmasıyla, ye, bozbaşı" gözəldi.

Limonları tanıdıbı adınan,
Ye, qayqanax", tanış ol bu dadınan,
Mürəbbəylə iç çayını şadınan,
Təmiz balı, dad anaşı gözəldi.

Burda qonağ, her bir evin əzizi,
,,Alanası" neçe çeşid çərizi,
Peç önündə, sındır badam- cevizi,
Heyva ile, ye yanaşı gözəldi.

Vahidəm ürəkdən açılıb sinə,
Men vurğunam,
yurdumun her fəslinə,
Gel gez ORDUBADI,
sen özün denən,
Bu yerlərin, her qarışı gözəldi.

## DÖNGƏNİN

Yadıma dusubdü,yene məhləmiz,
Hem o başı, hem bu başı döngənin.
Körpəliyin ilk addımı, səhnəmiz,
Sevgimizin ilk sirdaşı, döngənin.

Uşaqlıqdan bizə həmdəm, yar olub,
Qış gələndə, palçıq olub, zar olub,
Lap əzəldən, həm qaranlıq, dar olub,
Bilmeyibdi sirrin naşı döngənin.

Yazılıbdı gənclik orda yaddaşa,
Çox qalardıq o döngədə, baş, başa,
El, ələ verib biz gəzərdik, hey qoşa,
Qarışardı bizə başı, döngənin.
.
Əhdimiz tək, divarları çatdayıb,
Sevgimiz tək, vüsalına çatmayıb,
Gedək soraq, bəlkə heç unutmayıb,
Bizi uçan, kerpuc, daşı döngənin.

## Məhəbbət

İsterem insanlar şirin dil ola,
Süzülə bal kimi, dilə məhəbbət.
Sevgidən, və sevdadan hamı həz ala,
Dönə bir daşqına, selə məhəbbət.

Könüller xoş ola, diller can deyə,
Ayrılıq yan keçə, nə həsrət deyə,
Yayıla aləmə, çalına neye,
Döne bir tufana, yelə məhəbbət.

Bu dünya sevgidən, yaranıb doğub,
Sevilib, sevdirib, gəleni qovub,
Vahidin qəlbinde birinci olub,
Tanriya məhəbbət, elə məhəbbət.

## Ağlama can bala

Ağlama can bala,daha ağlama,
Gizlə göz yaşını,düşmən görməsin
Ağlamaq yaraşmaz şəhid oğluna,
Hər kəs fəth edənmez,şəhid zirvəsin.

Ağlama can bala,sıxma gözünü,
Atanda ruhuyla sənin yanında.
İntiqam hissini,qisas közünü,
Yandırıb,coşdurdu sənin qanında.

Ağlama can bala,şəhidlər ölmür,
Yaşayır vətənin damarlarında.
Şəhidlər sevimli mələyə dönür,
Daim əziz olur, tanrı yanında.

Ağlama can bala,ağlama besdi,
Üzü qara olsun,görüm zamanın.
Neçə insan ömrün yarıda kəsdi,
Çəkdi sinələrə bu həsrət dağın.

Ağlama can bala,Vətən sağ olsun,
Məğrur tut başını,döz ayrılığa.
Qoy sənin zehmini düşmənde duysun,
Qaçsın torpağımdan erməni dığa.

Ağlama can bala,səninlə vətən,
Bilirəm sağalmır ürək yarası.
Vaxt gələr,böyüyüb əsgər gedərsən,
Düşməndən alarsan sən bu qisası.

## Hele bu dünyayla, işim var mənim

Zirvəli bir dağam, qarlıdı təpəm,
Dumanlar içinde qorxuram itəm,
İstərəm, yenidən əkiləm, bitəm,
Torpağa səpilə, toxumum, dənim,
Hələ bu dünyayla, işim var mənim.

Tale məni silkələyər, yırğalar,
Sakitləşər, içimdəki dalğalar,
Yada salar, bəlkə məni doğmalar,
Bəlkə qoşa verər, bu dəfə zərim,
Hələ bu dünyayla, işim var mənim.

Yuxuma giribdi, o həyət baca,
Ata yurdun, gəzməliyəm doyunca,
Gedim bir baş çəkim, "yalqız ağaca"
Qoymasın yollarda, məni kəhərim,
Hele bu dünyayla, işim var mənim.

Çapsın uşaqlığa xəyal xəlvəti,
Axtarım, arayım itmiş qisməti,
Gedim haraylayım, ilk məhəbbəti,
Dağlara ucalsın harayım, nərim,
Hələ bu dünyayla, işim var mənim

Fələk yazıb ömrüme, şər divanı
Tez sınıbdı, bəxtimin nərdivanı
Yazmamışam, qalıbdı nər divanı.
Hələ içimdədi, sözüm.kəsərim
Hələ bu dünyayla, işim var mənim..

Qarışıb bu dünya, bu çərxi fələk,
Pozulub tərazi, deşilib ələk,
İçimde qisas var, tek arzu , dilek,
Alınsın düşmenden torpağım, elim,
Hele bu dünyayla, işim var menim.

## Anamın məzarı önünde hıçqıran qəlbimin pıçıltıları

Otaqda qalıbdı,hissin,nəfəsin,
Hopub ağaclara,güllərə səsin,
Yaman sınıxıbdı indi dağ Atam,
İtirib yaylağın,döşün,dərəsin

Qul olub hissinə,Atam təklənib,
İçinde boğubdu səsin harayın.
Elə hey gözlərin yollara sərib,
Biz Ana itirmişik o isə yarın.

Hər şey öz yerində, sən yoxsan Ana,
Qış qışlığında,yaz yazlığında.
Rişələr uzanıb here bir yana,
Atamla əkdiyin sevgi tağında.

Dünya çox coşqun, dəniz tək dərin,
Ayağın tapmadım, nədəki başın.
Ana bu dünyada xoş gün görmədin,
Mərmərdən töküldü amma baş daşın.

Senin işığındı hər yanan çırax,
Xəyalın canlanır gözüm önündə.
Seni axtarıram men indi ancaq,
Tek GÜNTƏN balamın o qaş gözündə.

Eh ruhun şad olsun,Ana rahat yat,
Meleksen uçmusan indi göyə sən,
Gören o dünyada necədi həyat,
Məndən bacımada salam deyərsən.

## Heç bilmirəm kimə deyim dərdimi

Heç bilmirəm, kime deyim dərdimi,
Heç bilmirəm, mən neynəyim bəs indi.
Elə bildin, bu ürəyim nərdimi ?
Bezdi daha, bu nazınla bəsindi.

Yanar sevgim, qığılcımı köz elər,
İnanmıram külək qova, düz elər,
Çoxu dedi;- səbir eləsən düzələr,
Dolub daşan, səbrim gəlir nes indi.

Qelbim yazar, xeyalına dəvəti,
Vahid onla hey görüşer xəlvəti,
Ömrümüze bahar geldi nöbəti,
İsti meh ol, gəl ruhuma es indi.



Ədalət 2019. - 28 mart.- S.7.